

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 167 (24.304)

*13 sentyabr 2023-cü il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də iki min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, bu məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlətimizin başçısının tapşırıqlarına əsasən hazırlanıb və uğurla icra olunub.

Məktəb binasının tikintisinə 2021-ci ilin fevral ayında başlanıb və bu ilin sentyabr ayında başa çatdırılıb. Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şəraitə malikdir. Yeni məktəbdə 74 sinif, 6 informatika otağı, məktəbəqədər 2 hazırlıq otağı, 8 otaqdan ibarət STEAM Mərkəzi, 2 idman zalı, 2 əmək otağı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika və biologiya kabinetləri, kimya laboratoriyası, kitabxana, yeməkxana və 400 nəfərlik akt zalı yaradılıb.

Prezident İlham Əliyev yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış oldu.

STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə aşılamaqla yanaşı, onlara mühəndislik səriştələri öyrədir.

Bu məktəbin STEAM Mərkəzi də elektron lövhələr, kompüterlər, 3D printerlər, müvafiq öyrədici qurğular, elektron komponentlər və dəftərxana ləvazimatları ilə təmin olunub. Burada, həmçinin mühəndis emalatxanası, kiçikyaşlı uşaqlar üçün zona, təlim və robototexnika otaqları var.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər ölkələrin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin ən müasir standartlara cavab verən binasının inşası da bir daha təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir.

**AZƏRTAC**

## O.M.Muradova Naxçıvan Muxtar Respublikası təhsil nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti nazir müavini Ovni Mehbalı oğlu Muradova verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 sentyabr 2023-cü il*

## R.Ə.Məmmədovun Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəhman Əli oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 sentyabr 2023-cü il*

## Azərbaycan-Türkiyə Enerji Forumunun Naxçıvanda keçirilməsi muxtar respublikanın enerji tranzitində yerini göstərir

*Məlum olduğu kimi, bu ayın 28-29-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan-Türkiyə 3-cü Enerji Forumu keçiriləcək. Bundan iki il əvvəl – 2021-ci ildə Bakıda, ötən il isə İstanbulda keçirilən analoji forumun bu dəfə Naxçıvanda keçirilməsi xüsusi əhəmiyyət daşıyır.*

Azərbaycan-Türkiyə Enerji Forumu hər iki tərəf üçün qarşılıqlı əməkdaşlığın enerji sahəsində inkişafı üçün nəzərdə tutulub. Əsasən, “yaşıl enerji” konsepsiyası çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyir. Aydın məsələdir ki, Azərbaycanın zəngin neft-qaz yataqlarından hasil olunan məhsulların əsas hərəkət istiqaməti, əsasən, qardaş Türkiyə Respublikası üzərindəndir. Eyni zamanda son illərdə Azərbaycanın Türkiyənin enerji sektoruna milyardlarla dollarlıq investisiya qoyduğu “STAR” Neft Emalı Zavodu, Petkim kimi layihələr ölkələrimizin qarşılıqlı enerji transformasiyasında atdıqları birgə addımların nəticəsidir. Bu da danılmaz faktdır ki, bu gün artıq Türkiyə öz ərazilərində yeni qaz yataqlarını kəşf edir, bərpa olunan enerji mənbələrinə ciddi investisiyalar qoyur. Paralel olaraq Azərbaycan da 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad etdiyi bölgələr də daxil olmaqla alternativ və bərpa olunan enerji mənbələrinin istehsal dairəsini xeyli genişləndirib. Türkiyənin neft-qaz sektorunun inkişafında Azərbaycan yaxından iştirak edir, Türkiyə isə Azərbaycandan idxal etdiyi enerjinin dünya enerji bazarına çatdırılmasında, bərpa olunan enerji sektorunun inkişafına, enerji səmərəliliyinə, elektrik enerjisi bazarının liberallaşdırılması və tənzimləməyə dair zəngin təcrübəsini Azərbaycanla bölüşür. Ötən dövrdə bütün dünya ölkələri Azərbaycan-Türkiyə enerji birliyinin tarixi zərurət olduğunu, bu birliyin regional və Avropa miqyasında təhlükəsiz, dayanıqlı enerji təchizatının qarantına çevrildiyini gördülər. Elə buna görə də enerji böhranı şəraitində TANAP və TAP layihələri beynəlxalq təchizatda etibarlılıq rəmzinə çevrildilər. Bu gün isə artıq Azərbaycan və Türkiyə enerji təhlükəsizliyinin davamlı təminatında strateji maraq kəsb edən ölkələr kimi qəbul olunurlar.



Naxçıvanda keçiriləcək Azərbaycan-Türkiyə 3-cü Enerji Forumu isə enerji əməkdaşlığı çərçivəsində müzakirə olunacağı ehtimal edilən bir sıra ciddi məsələləri ortaya qoyur. Belə ki, Naxçıvanın enerji tranzitinə çevrilməsi II Qarabağ müharibəsindən sonra daha da aktuallaşıb. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun bərpa olunan enerji mənbələrinin istehsal edilən enerjinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, oradan isə Türkiyə və Avropaya ötürülməsi qarşıdakı iqtisadi hədəflərdən biri kimi müəyyənləşdirilib. Digər tərəfdən, muxtar respublikanın bərpa olunan enerji mənbələri ilə zəngin olması bilavasitə Naxçıvanın özünün potensial enerji ixracatçısı kimi rolunu artırır. Məlum olduğu kimi, bu ilin iyun ayında Bakı Enerji Həftəsinin xüsusi sessiyası Naxçıvanda keçirilmişdi. Həmin tədbirdə muxtar respublikada 1500 MVt gücündə “yaşıl enerji” layihələrinin reallaşdırılacağı bildirilmişdi. Hətta sessiyanın gedişində Energetika Nazirliyi və “Total Energies” şirkəti arasında “250 MVt gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 MVt gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu”, eyni zamanda adıçəkilən nazirliklə “Nobel Energy Management” MMC arasında “Naxçıvan Muxtar Respublikasında 400 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanmışdır. Təsadüfi deyil ki, Naxçıvanın “yaşıl enerji” potensialının müzakirə olunduğu həmin sessiyada Böyük Britaniya, Fransa, Çin kimi inkişaf etmiş ölkələrin nümayəndələri də iştirak edirdi. Buradan o nəticəyə gəlmək mümkündür ki, növbəti forumda muxtar respublikanın bərpa olunan enerji mənbələri, eləcə də enerji ixracı üçün müasir infrastruktur obyektlərinin yaradılması istiqamətində müzakirələr aparılacaq. Bundan əlavə, I Enerji Forumunda “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında mədənçilik sahəsində əməkdaşlıq haqqında Saziş” də imzalanmışdı. Mümkündür ki, muxtar respublikanın mədən ehtiyatları ilə bağlı görüləcək işlər də müzakirə olunsun və yaxud müvafiq biznes subyektləri arasında saziş və ya əməkdaşlıq protokolu imzalansın. İstənilən halda belə bir forumun Naxçıvanda keçirilməsi muxtar respublika üçün olduqca əhəmiyyətli prosesdir.

**Səbuhi HƏSƏNOV**

*44 günlük Vətən müharibəsinin mütləq şəkildə qələbəmizlə yekunlaşması dəmir siyasi iradə, dövlət-xalq həmrəyliyi, Prezidentə inam və orduya mənəvi dəstək fonunda Azərbaycan xalqının nə qədər qüdrətli olduğunun əyani sübutudur. Bu qələbə nəticəsində 30 ilə yaxın davam edən işğala son qoyuldu, Vətən torpaqları işğaldan azad edilərək tarixi ədalət bərpa olundu. Bu gün regionda uzunmüddətli sülhün, əməkdaşlığın və təhlükəsizliyin təmin olunması üçün real şərait yaranıb. Dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycan özü üzərinə düşən vəzifələri qələbədən sonra da icra edəcək. Ermənistanın revanşist əhvali-ruhiyyəli davranış tərzi isə yalnız onların özünə ziyan verəcək. Vətən müharibəsində qazanılan qələbə həm də Zəngəzur dəhlizinin yenidən açılmasını təmin edib. Zəngəzur dəhlizinin açılması ölkə iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, Azərbaycanın regionda çəkisini artıracaq. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, inkişafa yeni nəfəs verəcək, bura Avropanı Asiya ilə birləşdirən çox önəmli nəqliyyat arteriyası olacaq. Zəngilan rayonu isə beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcək.*


Zəngəzur yolu ilə yola düşəcək ilk qatar

# Polad izlərlə böyük qayıdışa doğru

1991-ci ildə sonuncu qatarı Bakı-Şərur olan Zəngəzur dəhlizinin açılması ilə bağlı hazırda müəyyən işlər aparılır. Sonuncu qatarın izinə düşüb məhz həmin illərdə bu qatarlarda işləyən insanların fikirlərini öyrənməyə çalışdıq. Onlar da yenidən bu yolu gedəcəklərinə inanırlar. Hətta bir zamanlar burada çalışanlar uzun illər işlədikləri qatarlarla ora getməyi, yenidən bu işdə fəal iştirak etməyi özlərinə borc bilirlər. Həmin dövrdə erməni vandalizminin canlı şahidi olan **Ramazan Məmmədov** deyir ki, 1985-ci ildən çalışdığı bu yolda ermənilərin saysız-hesabsız vəhşilikləri ilə qarşılaşıb. Maşinist kimi fəaliyyət göstərən həmsöhbətimin yaddaşından silinməyən bir hadisə isə vətəndaşlarımızın həmin illərdə ermənilər tərəfindən vəhşiliklərlə yollara atılmasıdır: – Ermənilər yük maşınları ilə azərbaycanlıların əşyalarını, ailə və uşaqları dəmir yolunun kənarına qoyub buranı tərk etmələri üçün əziyyət verirdilər. Biz də qatarı saxlayıb həmin insanların əşyalarını daşıyırdıq və özlərini qatara mindirib Mincivana qədər aparırdıq. Ermənilər dəmir yolu relslərinin sıradan çıxması üçün daş tökürdülər. Mülki əhalini qatarın qarşısına qoyaraq qatarları saxlayırdılar. Lokomotivləri yoxlayıb istədiklərini qatardan götürürdülər.



Zəngəzur yolu. Tarixi fotolar

Ramazan Məmmədov deyir ki, bu hadisələr 1988-ci ildən etibarən başlayıb: – O illərdə qatarları partladıb terror əməliyyatları törədirdilər. Bizi həmin vaxtlarda qorxudurdular ki, qatarlar işləməsin. Ermənilərin əsas məqsədi qatarların fəaliyyətini dayandırmaq idi. Sonda 1992-ci ilin aprel ayından qatar yolu tamamilə bağlandı. 90-cı ilin əvvəllərində insanların Naxçıvana qayıtmasında bu qatarlardan istifadə olunub. Sərnişin qatarlarının gedişi dayansa da, yük qatarları işləyirdi. Avtomobillərin gedişi çətinləşmişdi, dəmir yolu vasitəsilə avtomobilləri daşıyırdıq. Dəmir yolunda işlədiyim müddətdə yerli əhaliyə, qatar işçilərinə qarşı erməni vəhşiliyinin yaxından şahidi oldum. Bizlər hər dəfə oradan keçəndə güllə atırdılar, teplovozlarımızın şüşələrindən keçən güllələr hələ də qalır. Məqsəd işi dayandırıb, işləməyimizin qarşısını almaq idi. Neçə dəfə qatarı partladıb sərnişinləri yerə töküblər, qatarı üz-üzə göndərib böyük qəzalar törədiblər. Bu qəzada neçə işçimiz vəfat edib. İnanıram ki, bir vaxtlar olduğu kimi, gediş-gəliş yenidən tez bir zamanda bərpa olunacaq, bu yollara olan həsrət sona yetəcək. Çox xoşbəxtəm ki, ölmədən o yolları yenidən görəcəyəm.

Bir vaxtlar Zəngəzur dəhlizində yol ustası kimi çalışan ***Kərəm Qəşəmov*** deyir: – Ermənilər o zaman qatarı saxlayaraq 12 həmyerlimizi girov götürmüşdülər. Onlardan 3-ü Zəngilan, 9-u isə Ordubad rayon sakini idi. O zaman Ümummilli Lider Heydər Əliyevin səyləri nəticəsində həmin insanlar girovluqdan azad edildi. Bu işləri görməkdə ermənilərin məqsədi Naxçıvanı blokadaya almaq, təxribatlara əl atmaq idi. Buna görə böyük qaya parçalarını dəmir yollarının üzərinə tökür, Arazdəyən istiqamətində atəş açıb xalqın rahat yaşamasına imkan vermirdilər.

Ermənilərin bu təxribatlara hər zaman əl atdığını, hadisələrin 1989-cu ildən başlayaraq daha da şiddətli vəziyyət aldığını qeyd edən Kərəm Qəşəmov, xüsusilə həmin dövrdə insanların qatarlardan necə düşürüldüyünü xatırlayaraq əlavə edir: – Bədnam qonşularımızın sərnişin qatarını saxlayıb insanları girov götürmələri indiyədək yadımdadır. Həmin vaxt qatarda insanların çoxu infarkt keçirdi, uşaqlar qorxu içində idi. Yenə də Ulu Öndərimizin təşəbbüsü ilə girov olan sərnişinlər Naxçıvana qaytarıldı. Naxçıvan əhalisinə hədə-qorxu gəlirdilər, burada insanlarımıza böyük çətinlik yaradılırdı. Mən də bu təxribatların canlı şahidi olmuşam. Belə ki, maşinistlərlə birlikdə gələrkən Zəngilandan keçdikdən sonra Mehri stansiyasında ermənilər maşinistlərdən birinə yaxınlaşaraq dedi ki, üçüncü adamı burada görsək, sizləri həbs edəcəyik. Mən də arxa vaqonda motorların yanında gizləndim ki, orada olan növbətçilər məni görməsin. İki saatdan çox orada qaldım və səs-küydən sonra danışıqlar aparıldı, nəhayət, qatarın getməsinə icazə verdilər. Mən bir dəmir yolu işçisi kimi Zəngəzur dəhlizi açıldıqdan sonra yenidən orada fəaliyyət göstərməyə məmnuniyyətlə hazıram.


Zəngəzur yolunda erməni güllələbaranına tuş gələn qatar

İndi bu yollar yenidən öz gələcək qonaqlarını gözləyir. Bəs “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti Zəngəzur dəhlizi açılana kimi hansı işləri görür? “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat işləri üzrə mütəxəssisi ***Həmid Quliyev*** məsələ ilə bağlı dedi ki, bu günə qədər muxtar respublikada “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin maddi-texniki bazasının gücləndirilməsi yönündə Ordubad, Culfa, Naxçıvan, Şahtaxtı və Şərur stansiyalarının sərnişin vağzalları və idarəetmə mərkəzlərində əsaslı yenidənqurma və təmir-bərpa işlərinin aparılması, infrastruktur və Yük və Sərnişin Daşımaları idarələrinin inzibati binalarının, həmçinin yol sahəsinin, təmir sexinin, briqada evinin, orta və irihəcmli anbar binalarının və onlarla digər struktur binaların əsaslı təmiri və yenidən qurulması işləri aparılıb. Həmçinin ötən illər ərzində infrastruktur qorunub, yerli yük və sərnişin daşımaları həyata keçirilib. Görülən bu işlər Zəngəzur dəhlizinin fəaliyyətə başlamasına qədər Naxçıvanda dəmir yolu sahəsinin qismən hazır olmasına şərait yaratmış olacaq. Çünki dəhliz açıldıqdan sonra yol təsərrüfatı və infrastrukturun əsaslı şəkildə yenilənməsinə ehtiyac duyulacaqdır.

Həmid Quliyev, eyni zamanda qeyd etdi ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və bu Sərəncamdan irəli gələn öhdəliklərin yerinə yetirilməsi də qurumun əsas fəaliyyət istiqamətlərindən biridir. Naxçıvan dəmir yolu şəbəkəsində dəmir yolu xətlərinin, elektrik təchizatı, rabitə-işarəvermə sisteminin yenidən qurulması, müasir infrastrukturun yaradılması, həmçinin inzibati və texniki binaların yenidən qurulması, əsaslı təmiri və zəruri hallarda yeni binaların tikilməsi, eləcə də əsaslı təmir işlərinin aparılması üçün zəruri avadanlıqların və maşın-mexanizmlərin alınması və “Qəza-bərpa qatarı”nın maddi-texniki bazasının yaradılması Dövlət Proqramının tələblərinə uyğun şəkildə ardıcıl və planlı mərhələlərlə həyata keçirilməsi qarşımızda duran əsas vəzifələrdəndir. Onu da qeyd edim ki, bütün bu tədbirlərin Zəngəzur dəhlizinin reallaşdırılması prosesi ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi nəzərdə tutulub.

Sonda Həmid müəllim cari ilin 8 ayı ərzində görülən işlər barədə məlumat verərək bildirdi ki, muxtar respublikada 141 vaqonda, ümumilikdə, 8 min 330 ton yük daşınıb. Sərnişindaşımada bu rəqəm 40 min 322 nəfər təşkil edir.

Yük və Sərnişindaşıma İdarəsinin rəisi ***Mübariz Allahverdiyev*** isə dedi: – Culfa lokomotiv zavodunda elektrovoz-teplovozlar təmir olunur. Hazırda qatarlarda təmirə gündəlik nəzarət edilir. Zəngəzur dəhlizi, inşallah, tezliklə açılar, Naxçıvan sakinləri Azərbaycanın digər bölgələrinə rahat və maneəsiz şəkildə hərəkət etmək imkanı qazanar. Sərnişin qatarlarımız, yəqin ki, Bakıdan gələcək, yük qatarlarının isə Bakıya aparılaraq yenidən təmir olunması nəzərdə tutulur, yollarımız təmir ediləcək. Biz də çalışırıq ki, lokomotiv deposunda olan texnikaları imkan daxilində hazır vəziyyətdə saxlayaq ki, yol açılan zaman onlardan Zəngəzur dəhlizində istifadə etmək imkanımız olsun.

Prezident cənab İlham Əliyev xalqa müraciəti zamanı Naxçıvan dəmir yolunun bərpasının müjdəsini verərək demişdir: ***“Naxçıvan Muxtar Respublikasına gedən dəmir yolunun bərpası ilə əlaqədar ilkin göstərişlər verilmişdir”.***

*İndi muxtar respublikada dəmir yolçuları qarşısında daha böyük öhdəliklər, vəzifələr durur. Şübhəsiz ki, yaxın gələcəkdə Naxçıvan da Beynəlxalq dəmir yolu şəbəkəsinə qoşularaq Azərbaycan iqtisadiyyatına böyük töhfələr verəcək.*

**Ceyhun MƏMMƏDOV**
**Bülbül QULİYEVA**



# Naxçıvan Muxtar Respublikasında torpaqların su təminatının yaxşılaşdırılması işləri davam edir

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin avqust ayı ərzində suvarma mövsümünü mütəşəkkil şəkildə davam etdirmək məqsədilə cəmiyyətin tabe idarələri tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüş, hidrotexniki qurğularda təmir işləri aparılmış, anbarlara suyun yığılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilmişdir. Belə ki, muxtar respublikanın mövcud su anbarlarında 2023-cü ilin avqust ayının sonuna 77,97 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə avqust ayı ərzində 17,12 milyon kubmetr su verilmiş, bunun müqabilində 14 min 93 hektar torpaq sahəsi suvarılmışdır.

2023-cü ilin avqust ayı ərzində 9,4 kilometr beton və torpaq kanallar, 16,13 kilometr ara arxlar, 3,2 kilometr kollektor lildən təmizlənmiş, 1,72 kilometr içməli su, 0,2 kilometr kanalizasiya xətləri çəkilmiş, 5,99 kilometr mövcud içməli su xətlərində, 0,12 kilometr kanalizasiya xətlərində, 2 kilometr suvarma boru xətlərində, 1,41 kilometr təzyiqli boru xətlərində, 0,83 kilometr isə kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir.

Torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Şərur rayonunda Püsyan kollektorunda 3,2 kilometr lildən təmizləmə işləri aparılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunda 38 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Babək rayonu ərazisində 1,5 kilometr mövcud yaşıllıq zolaqlarının suvarma boru xətlərində təmir-bərpa işləri aparılmışdır.

Nasos stansiyalarında və təzyiqli boru xətlərində cari təmir işləri davam etdirilmişdir. Şərur rayonunda “Zeyvə-1”, “Xələc”, “Həmzəli-2”, “Qorçulu”, “Arpaçay-1”, “Arpaçay-2”, “Ərəbyengicə” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,57 kilometr, Babək rayonunda “Araz-1”, “Araz-2”, “Hacıvar”, “Nehrəm”, “Yarımca” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,18 kilometr, Şahbuz rayonunda “Daylaqlı”, “Əcəmi-1”, “Əcəmi-2”, “Yeni” nasos stansiyalarının və Şahbuz şəhər subartezian quyusunun təzyiqli boru xətlərində 0,13 kilometr, Culfa rayonunda “Culfa-1”, “Gülüstan” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,12 kilometr, Ordubad rayonunda “Əylis-3” nasos stansiyasının təzyiqli boru xəttində 0,2 kilometr, Sədərək rayonunda “Sədərək-0”, “Sədərək-1”, “Sədərək-2”, “Sədərək-4” nasos stansiyalarının təzyiqli boru xətlərində 0,12 kilometr, Kəngərli rayonunda “Şahtaxtı” və Naxçıvan şəhəri ərazisində olan “Azərbaycan” nasos stansiyalarının hər birinin təzyiqli boru xətlərində isə 0,05 kilometr təmir-bərpa işləri aparılmışdır.

Naxçıvan şəhəri, Babək və Kəngərli rayonlarının 8300 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün “Qaraçuq-1” nasos stansiyası ərazisində Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının tikintisi davam etdirilmişdir. Nasos stansiyanın döşəməsinə beton verilməsi üçün qəliblərin qurulmasına, elektrik binasının dam örtüyünün vurulmasına, körpülü kranın quraşdırılması üçün müvafiq işlərin görülməsinə başlanılmışdır.

2023-cü ilin avqust ayı ərzində 5 kəhrizdə cari təmir işləri aparılmış, ay ərzində kəhrizlərdə 465 metr kürə təmizlənmiş, 14.5 metr saybənd hörülmüşdür.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 9 ədədinə yeni nasos quraşdırılmaqla 85-i təmir olunmuşdur. Bundan əlavə, Babək rayonunun Cəhri qəsəbəsində 1 subartezian quyusu tikilərək istifadəyə verilmişdir.

Cəmiyyətin Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyuların Təmiri İdarəsinin təmir sexi tərəfindən 7 su sayğacı, 1 nasos rotoru, 20 nasos hissəsi təmir edilmişdir.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 26 evin içməli su xəttinə, 129 evin isə kanalizasiya xəttinə birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***





**Tarixi abidələrimiz milli sərvətimizdir**

## Memarlıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Qənbərova: “Dünya təcrübəsində abidənin bərpası 20-30 ilə kimi davam etdiyi halda Naxçıvan abidələrində 5 ay və ya bir il müddətində “bərpa işləri” aparılır, nəticədə, abidələrimiz öz memarlıq əhəmiyyətini itirir”

*(əvvəli qəzetimizin 12 sentyabr 2023-cü il tarixli nömrəsində)*

***– Naxçıvana üz tutan qonaqların, turistlərin ən çox ziyarət etdikləri ünvanlar sırasında Gülüstan, Möminə xatın, Qarabağlar türbələri olur. Təəssüf ki, həmin abidələrin də bugünkü vəziyyəti barədə, bərpanın düzgün aparılmadığı ilə bağlı bir qənaət vardır...***

– 2014-2015-ci illərdə Gülüstan türbəsində bərpa işləri aparılan zaman Azərbaycan Memarlar İttifaqının və Azərbaycan Memarlıq və İnşaat Universitetinin bir qrup nümayəndəsi Naxçıvana gəlmişdi. Nümayəndə heyəti Naxçıvan Şəhər İcra Hakimiyyətində, AMEA Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində oldular, abidələrin bərpası və qorunması ilə əlaqədar bir sıra tədbirlər təşkil edildi, memarların məruzələri dinlənildi. Sonra Naxçıvanın bir sıra abidələrinə baxış keçirildi, abidələrin yanında memarlar öz fikirlərini bildirdilər. Mən də bir naxçıvanlı memar kimi həmin tədbirlərdə iştirak edirdim. Gülüstan türbəsinə ekskursiya zamanı memarlar düzgün aparılmayan bərpa işlərinə, abidədə yeni tikinti materiallarının işlənməsinə və memarlıq elementləri və memarlıq quruluşundakı dəyişikliklərə irad tutsalar da, sonradan bu iradlara əməl edilmədi.

Möminə xatın türbəsində də müxtəlif dövrlərdə bərpa işləri aparılıb. Bu barədə abidədə araşdırma işləri aparan zaman yerli əhali ilə söhbətlərimiz oldu və türbənin yaxınlığında həyət evində yaşamış Kəngərlilər tayfasından olan Əkbər xan Kəngərlinin nəvəsi də bildiklərini, gördüklərini bizimlə bölüşdü. Söhbət zamanı onun 55-60 yaşı olardı. O bildirdi ki, türbədə ilk dəfə bərpa işləri 1956-1963-cü illərdə aparılıb. Onda uşaq yaşlarında olub. Abidədə bərpa işlərini rus və erməni əsilli alim və tədqiqatçılar, bərpaçılar aparırmış. Onlar Möminə xatın türbəsinin memarlıq quruluşunda ilk təhrifə onun sərdabəsinin qərbdən olan giriş qapısını kərpiclə hörərək, şərqdən açmaqları ilə başlamışlar. Sərdabədə 3 qəbirin – Atabəy Şəmsəddin Eldəgizin, Möminə xatın və oğlu Məhəmməd Cahan Pəhləvanın qəbirlərinin olduğunu bildirdi. Hər üç şəxsin nəşinin və cəsədlərin üzərindəki qızıl tacların, kəmər və bilərziklərin və digər əşyaların ruslar tərəfindən götürülərək Rusiyanın Sankt-Peterburq şəhərinə aparıldığını dedi.



Təbii ki, sərdabənin giriş qapısının qərbə açılması təsadüfi deyil. Onun Türk topluluqları arasında rəmzi mənası var. Türklərin mifologiyasında şimal və qərb ölümü simvolizə etdiyi üçün sərdabələrin girişləri bu istiqamətdə verilmişdir. Türbənin gövdə hissəsinin bəzək kompozisiyaları ilə zəngin bəzədilməsi və giriş baştağının da şərqə açılması insanın bu dünyasına, sərdabənin örtüyünün qüllələri tikilməsi isə insanın o biri, yəni yuxarı dünyasına işarət edir. Eləcə də “Tenqiri”nin, “Tanrı”nın yuxarıda olmasına işarətdir.

Orta Asiyadan Anadoluyadək, böyük bir ərazidə türklər tərəfindən ucaldılan memarlıq və plan quruluşu ilə fərqlənən çoxlu sayda türbə tikililəri var. Bir tədqiqatçı-memar kimi bildirmək istərdim ki, Naxçıvan türbələri, eləcə də Möminə xatın türbəsi kimi unikal tikili yoxdur. Abidə öz həcm-məkan kompozisiyası, eləcə də xarici səthlərini bəzəyən simvolik mənalar kəsb edən naxış kompozisiyaları ilə fərqlənir, ona tamaşa etməyə gələnləri heyran qoyur. Möminə xatın abidəsinin həndəsi və yazı naxışlarında təhriflərə yol verilsə də, memar Əcəmi bunu əvvəlcədən görürmüş kimi abidənin memarlıq quruluşu, konstruksiyası ilə bəzək kompozisiyalarının vəhdətini elə qurmuşdur ki, bu abidənin ümumi görünüşündə o qədər də hiss olunmur.

Ümumiyyətlə, abidələr üzərindəki kiçik bir naxışın, memarlıq elementinin, memarlıq quruluşunun həllinin öz rəmzi, dərin mənası var. Misal üçün, Qarabağlar türbəsinin cənub-qərb tərəfində yerləşən və tarixi XII əsrə aid edilən qoşa minarələr İslama, azana, baştağ isə türk mifalogiyasında bir mühitdən başqa mühitə keçidə işarət edir. Təəssüflər olsun ki, Qarabağlar Türbə Kompleksində aparılan bərpa işləri zamanı türbənin minarələrinin şərəfəsində Osmanlı memarlığında çox yayılmış şərəfə elementlərindən istifadə olunmuşdur. Türbənin gövdə hissəsindən dörd istiqamətdə – şimal, qərb, şərq və cənuba açılmış baştağlarının kənarə naxışları, baştağın alınlığı üzərindəki bir sıra həndəsi və nəbati naxışlar düzgün qurulmamış və ya başqa naxışlarla əvəzlənmişdir. Türbənin günbəz örtüyü miqyasa uyğun seçilmədiyindən, onun memarlıq quruluşuna xələl gətirdiyi kimi, türbənin naxışları bərpa edilərkən Naxçıvan memarlıq məktəbinə xas olmayan rənglərdən istifadə edilməsi də diqqətə çarpır.







Tarixi abidələrimizin bərpası zamanı düzgün aparılmayan bərpa işləri onların tarixiliyinə xələl gətirməklə yanaşı, ilkin memarlıq görkəminin də unudulmasına gətirib çıxarır. İnsan gördüyü kimi də abidəni təsvir və ya ifadə edir.

***– Konstitusiyamızın “Mədəniyyət hüququ” adlanan 40-cı maddəsinin II bəndində qeyd olunur ki, hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır. “Tarix və mədəniyyət abidələrinin qorunması” adlanan 77-ci maddədə isə bildirilir ki, tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur. Amma, təəssüf ki, tarixi abidələrimizin bərpası ilə yanaşı, onların qorunması sahəsindəki vəziyyət də ürəkaçan deyil...***

– Bəli, tarixi irsimizlə bağlı həssas məqamlardan birinə toxundunuz. Dünya təcrübəsində də belədir ki, dövlət tərəfindən xalqın maddi-mənəvi irsinin mövcud olduğu tarixi, təbiət əraziləri qorunmaya, mühafizəyə alınır. Heç kəs “qoruq” adlanan həmin ərazinin bir daşını belə tərpədə və ya götürə bilməz, əks halda həmin insan cinayət məsuliyyətinə cəlb olunmalıdır. Çox təəssüflər olsun ki, bütün dünyada tarixi abidələrin, tarixi ərazilərin qorunmasına, onların ərazisindən turistlərin hər hansı bir elementi (daş, ağac və sair formada) aparmamasına çalışılsa da, bunun qarşısını tam şəkildə almaq mümkün deyil.

Tarixdən də bildiyimiz kimi, Azərbaycan abidələrinin bir qismi ərazidə baş verən zəlzələ və su daşqınları, müharibələr nəticəsində məhv olmuşdur. 1830-cu illərdən sonra Rus çarlığının tərkibinə daxil edilən Azərbaycan torpaqlarında yerləşən dini binalar ruslar tərəfindən vəhşicəsinə dağıdılmış, anbar və ya başqa məqsədlər üçün istifadə olunduğuna görə tikililər tamamilə sıradan çıxmışdır. Yalnız bişmiş kərpic və daşdan tikilmiş abidələr qismən də olsa, qalmışdır. Məsələn, dünyada “Xüdafərin körpüləri” kimi tanınan və tarixi orta əsrlərə aid edilən 11 aşırımlı körpü ruslar və farslar tərəfindən uçurulmuş, körpünün Araz çayı üzərində yalnız mərkəzi tağları qalmışdır. Naxçıvan ərazisindən keçən Araz çayının Culfa rayonu ərazisində yerləşən Ziya-ül Mülk, Şah Abbas körpüləri, ərazidən dəmir yolu xəttinin çəkilişi zamanı orta əsrlərə aid edilən karvansaray və sair abidələr sökülərək dağıdılmış, bu tikililərdən bizlərə yalnız səyyahların verdikləri məlumatlar və tikililərin qalıqları qalmışdır.

Müasir dövrdə cəmiyyətdə abidələrimizə qarşı etinasızlıq halları mövcuddur və nədənsə dağıtmağa, məhv etməyə meyillidir. Tədqiqat işləri aparmaq üçün bir neçə il əvvəl Ordubad şəhərinə və rayon ərazisində yerləşən abidələrə tez-tez gedirdim. Təəssüf ki, orada qarşılaşdığım mənzərə qəlbimi sızladırdı: – bir tərəfdən yararsız bərpa işləri, digər tərəfdən isə insanların yaşı 200-300 və bəlkə də, daha çox olan evlərə qarşı dağıdıcı münasibəti. İnsanlar kökdən gələn, ata və ya babalarından qalma yaşayış evlərinə qarşı bu cür münasibət bəslədiyi halda, şəhərin tarixi memarlığını, məhəllələrini, kəhriz sistemini necə qoruyub saxlayacaqlar? Əksər qapılara qıfıl vurulmuş, sanki yaşadıqları rayon, kəndlə yanaşı, evlər belə unudulmuşdur. Ordubad rayonu Azərbaycanın incisi sayılır. Turistik imkanları baxımından olduqca əlverişli təbiəti və memarlıq abidələri ilə zəngin bölgədir. Bildiyimiz kimi, tarixi VII-VIII əsrə aid edilən Naxçıvan ərazisində qalmış yeganə alban abidəsi Ordubad şəhərində yerləşir. Eləcə də orta əsrlərə aid edilən və yeganə Qeysəriyyə və Mədrəsə binası da Ordubad şəhərindədir. 1979-cu ildən Ordubadın qoruq elan edilməsinə baxmayaraq, aidiyyəti orqanlar tərəfindən baxımsızlıq ucbatından rayonun bir sıra tarixi-memarlıq abidələri dağıdılmış, dövrümüzə gəlib çatmış abidələrdə isə yararsız bərpa işləri aparılmışdır.

Mən Türkiyənin Əhlət şəhərində olanda ərazidə Səlcuq dövründən qalma beş qəbiristanlığın qorunub saxlandığının şahidi oldum. Qəbiristanlıqda türbə memarlığı ilə yanaşı, hündürlüyü 2-3 metrdən çox olan minlərlə qəbir daşlarının bərpa edilərək saxlandığını gördüm. Ərazilər qoruna altına alınmış, arxeoloji qazıntılarla yanaşı, bərpa işləri aparılır, eləcə də ərazidə muzey yaradılaraq tapılmış maddi mədəniyyət nümunələri orada sərgilənir. Üç gün ərzində oraya minlərlə turistin axın etdiyini gördüm.

Türkiyənin Nevşəhər ərazisində yaradılmış universitetin dəstəyi ilə keçirilən konfrans və simpoziumların, Kapadokya ərazisində yerləşən daşlardan yonulmuş yaşayış evləri ilə yanaşı, ərazidə yaşayan sənət adamlarının əl işlərinin satışının təşkili, əraziyə hava balonları ilə səyahət və sair turistlərin axınını gücləndirir. Üsküdarda 25 min əhalinin yaşadığını və gündəlik onun 3 misli qədər də turistin gəldiyini konfrans iştirakçılarından öyrəndim.

Abidələrimizə biganə münasibətə görə təkcə yerli əhalini ittiham etmək olmaz, eləcə də aidiyyəti orqanların, tədqiqatçıların da günahı böyükdür. Deyilən iradlar vaxtlı-vaxtında öz həllini tapsa idi, bəlkə də, abidələrimiz bu vəziyyətə düşməzdi.

***– Bildiyiniz kimi, ölkə Prezidentinin müvafiq Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib. Proqramda tarixi abidələrimizin bərpa layihələrinin hazırlanması və beynəlxalq səviyyədə qorunması üçün UNESCO-nun maddi mədəni irs siyahısına salınması istiqamətində işlərin görülməsi nəzərdə tutulub...***

– Qeyd etdiyimiz kimi, Naxçıvan abidələri kərpic memarlığının ən unikal əsərləridir. Eyni zamanda həcmləri və mürəkkəb memarlıq quruluşları ilə də fərqlənir. Düzdür, həndəsi, nəbati və ərəb yazılarından qurulmuş bəzək kompozisiyaları yalnız Naxçıvan ərazisində qalmış türbə memarlığında qorunub saxlanılsa da, digər dini və mülki tikililərin, qalaların memarlığından da onların vaxtilə zəngin bir şəkildə inşa edildiyini təsəvvür etməmək mümkün deyil. Mən Anadolu bölgəsində, İran ərazisində apardığım tədqiqatlar zamanı öyrəndim ki, orada sadə inşa edilmiş abidələr belə UNESCO-nun maddi mədəni irs siyahısına salınıb. Niyə məhz bizim belə tarixi keçmişi, möhtəşəm, mürəkkəb həndəsi quruluşu, zəngin memarlıq elementləri olan abidələrimiz o siyahıya düşməsin?! İnanırıq ki, müvafiq Dövlət Proqramından irəli gələn vəzifələrin icrası tarixi-mədəni irsimizin fundamental şəkildə bərpasına və qorunmasına geniş imkanlar açacaq. Bu vəzifələrin icrası biz memarların da başlıca məramı olmalıdır və buna ən əsası vətənpərvərliklə, milli heysiyyətlə yanaşmalıyıq.

*– Maraqlı müsahibə üçün sağ olun!*

**✍ Nail ƏSGƏROV**

# Borcluyuq bu gün üçün şəhidliyə ucalmış qəhrəmanlara, yaşayan qəhrəmanlara!

*İki həftə öncə Azərbaycan Tələbə-Gənclər Təşkilatı İttifaqının sosial şəbəkə hesabında bir layihə haqqında paylaşılan məlumat diqqətimi çəkdi: "Şuşa tələbələrin gözü ilə"... Dərhal bu layihə haqqında məlumat əldə etdim. Layihənin əsas məqsədi Azərbaycanda Diplomatiya, Hüquqşünaslıq, Jurnalistika və Memarlıq ixtisasları üzrə təhsil alan, müəyyən kriteriyalar əsasında seçiləcək istedadlı gənclərin ölkəmizdə gedən proseslərə müsbət təsirinin artırılması, tələbələrin Şuşanın tarixi və mədəni irsi ilə bağlı maarifləndirilməsi, Şuşaya qayıdış prosesində həvəsləndirilməsi idi. Bir neçə gün davam edən həyəcanlı gözləyişdən sonra müsahibə mərhələsindən keçdik və artıq Şuşaya səfərimiz təsdiqləndi.*




5 sentyabr, saat $4^{30}$-dur. Artıq gənclər yola düşəcəyimiz məntəqədə toplaşmağa başlayıb. Hər kəs səbirsizliklə yola çıxmağı gözləyir. Hamımız 8 saatlıq yol üçün hazırıq. Bakı şəhərinin üzərindən Günəşin ilk şüaları görünür. Şəhərdən çıxar-çıxmaz yol kənarlarında "Şuşa" yazısını görə bilirik. Mədəniyyət beşiyinə uzanan bu yolun xeyli maraqlı olmasını bu yolu qət edənlərdən öyrənmişəm. Şuşaya uzanan yollar bizi Azərbaycanın görmədiyimiz səfalı, gözəl guşələri ilə də tanış edir. Yol kənarında uzaqdan görünən mavi Xəzər, səhər saatlarında Salyan şəhərinin üstünü örtən çən, uzanan üzüm bağları və pambıq tarlaları, Beyləqan və İmişli rayonlarında arabir görünən Kür çayı hər birimizi valeh edir. Heç görmədiyimiz bu yollarla irəlilədikcə qarşımıza çıxan hər yol lövhəsində bir rayonumuzun adını oxuya bilmək qürurvericidir. Gənclər söhbətləşir, Şuşada bizi nələrin gözlədiyini müzakirə edirlər.

Füzuli rayonunun işğal edilməmiş ərazisinə daxil oluruq. Uzaqdan Qayıdış qəsəbəsi görünür. Doğrudan da, burada Vətənə qayıdışın izləri xeylidir. Qəsəbədə məcburi köçkünlərin yaşadıqları evlər, içərisindən keçdiyimiz Bala Bəhmənli kəndinin mərkəzindəki müxtəlif ticarət obyektləri, tikilməkdə olan yeni infrastruktur burada həyatın yenidən canlandığını sübut edir. Lakin yola davam etdikcə, tədricən, mərkəzdəki canlı həyat geridə qalır, seyrək kəndlərlə davam etdiyimiz yolun sonunda Füzuli rayonunun işğaldan azad edilmiş hissəsinə çatırıq. Buradakı yoxlanış məntəqəsində qürurla xidmət edən polislərimiz həm bizim, həm də bölgənin təhlükəsizliyini təmin edə bilmək üçün öz vəzifələrini yüksək səviyyədə yerinə yetirirlər. Təlimçilərimiz bizə keçdiyimiz kəndlərin tarixi barədə məlumat verirlər. Elə bu anda ermənilərin "keçilməz" hesab etdiyi Ohanyan səddi görünür. Öyrənirik ki, bu sədd erməni nazirinin adı ilə bağlıdır 30 il ərzində möhkəmləndirildiyi 10 mərhələli müdafiə xətti olduğu üçün ermənilər düşünüblər ki, Azərbaycan Ordusu bu səddi keçə bilməyəcək. Tikanlı məftillər və diraklərlə qurulan sədd tank əleyhinə minalarla əhatə olunmuşdu. Burada gördüklərimiz, öyrəndiklərimiz bizi sarsıtmış olsa da, igid döyüşçülərimizin bu "keçilməz" səddi yararaq torpaqlarımızı düşmən tapdağından azad etdiyini artıq hamımız bilirik.

Yol boyunca erməni işğalı zamanı kəndlərimizin vəhşicəsinə dağıdılaraq acınacaqlı görkəmə məruz qoyulduğunu ürək ağrısı ilə izləyirik. Gördüyümüz dağıdılmış tikililər bir vaxtlar kiminsə ata-baba ocağı olsa da, bu gün buranı kənd adlandırmaq mümkün deyil. O qədər uzun zaman keçib ki, evlərin qalıqlarına baxanda nə yolu bilinir, nə cığırı. 1993-cü ildə Ermənistan silahlı qüvvələri bu kəndləri işğal edəndə ermənilər bu evləri söküb Ermənistana daşıyıblar. Sökülən evlərin içində yabanı otlar bitib. Təsəllimiz odur ki, yeni nəfəs verilmiş bütün bölgələrimiz kimi, bura da yaxın vaxtlarda qaynar həyat mərkəzinə çevriləcək.

İrəlilədikcə yenidənqurma işlərinin yüksək səviyyədə aparıldığı, müxtəlif infrastruktur işləri görülən, eyni zamanda açılışında Prezident cənab İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi Füzuli Beynəlxalq Hava Limanının yerləşdiyi Füzuli şəhərinə daxil oluruq. Şəhərdə məskunlaşacaq insanların rahat və müasir həyat şəraitini təmin edən yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri tikilib, təhsil, səhiyyə, mədəniyyət, istehsal müəssisələri yaradılır.

Şuşa şəhərinə yaxınlaşdıqca, kəndləri ötdükcə yolların necə çətin keçilən olduğunu, məntəqələrin nə qədər yüksəklikdə yerləşdiyini daha yaxşı anlayırsan. Artıq Xocavənd rayonunun Tuğ kəndi ərazisinə yaxınlaşırıq. Buraya çatmazdan öncə Azıx mağarasına gedən yolu görürsən. Tuğ kəndi valehedici gözəlliyə malikdir. Şuşa şəhərinə gedən Zəfər yolu üzərində yerləşən bu kənd zəngin təbiətə və ekoloji resurslara sahibdir. Burada da vəziyyət fərqli deyil. Dağ yamacında yerləşən evlər dağıdılıb, amma zəngin təbiət dağıdılmış, xəsarət almış bu evləri öz ağuşunda gizlədir.

Budur, Şuşa şəhərinə qalxan Zəfər yolu sanki bizi salamlayır. Artıq hər birimiz səbirsizliklə yolun bitməyini, doğma torpağa ayaq basmağı gözləyirik. Avtobus sürətini azaldır, sanki yuxarı çıxa bilmir. Bu anda, ilk növbədə, bu torpaqları azad etmək üçün bu yolları öz gücləri ilə qalxan, əziyyətlərə qatlaşan, Vətən eşqi ilə döyüşüb canını tapşıran şəhidləri düşünürsən. Axı onların yolu asan olmayıb. Onları bu zirvəyə qaldıran isə torpağa sonsuz məhəbbət və sönməyən intiqam alovu idi.

Zəfər yolunun iki tərəfində bir yurd yeri var. Burada dərin sükut hökm sürür. Yalnız əbədiyyətə qovuşan ruhların pıçıltısı duyulur. Bura Daşaltı kəndidir. 1992-ci il yanvarın 25-dən 26-na keçən gecə tariximizə uğursuz əməliyyat kimi düşmüş "Daşaltı əməliyyatı" burada baş vermişdi. Yoldan açıq-aydın görünən Daşaltı kəndini izləyərkən "Bayatı-şiraz" səslənir. Belə təsirli dəqiqələrdə burada neçəsinin taleyi hələ də məlum olmayan, şəhadətə yüksəlmiş 90-a yaxın döyüşçümüzün əziz xatirəsi bizi də Daşaltı kimi sükuta qərq edir...

Daşaltını geridə qoyaraq davam etdiyimiz yolda, böyük hərflərlə dağın üstündə yazılmış ŞUŞA sözü uzaqdan diqqətimizi cəlb edir. Ötüb keçdiyimiz səliqəli, amma bir o qədər də çətin yollar bizi Azərbaycanın incisinə – Şuşa şəhərinə gətirib çatdırır. Təlimçimiz elan edir: "Biz artıq Şuşa şəhərindəyik!" Köhnə binaların, bərpa olunan abidələrin, tikinti-quruculuq işlərinin aparıldığı küçələrdən keçərək Şuşanın mərkəzinə çatırıq. Doğma torpağa ilk qədəmlərimizi qoyuruq. Düşünürəm: deyirlər ki, bu dünyada ən böyük qüvvə sözdür. Bu necə sevgidir, bu necə məhəbbətdir ki, onu sözlə ifadə etmək olmur? Hansı söz, hansı ifadə bu duyğuları izah edə bilər? Bilmirəm. Ciyərlərimizi sarıbsarmalayan ipək kimi havası, sonsuz mavi səması, yaşıla qərq olmuş təbiəti ilə Şuşa sanki cənnətdən bir mənzərədir. İlk tanış olduğumuz məkan Şuşa Şəhər İcra Hakimiyyəti binasının yerləşdiyi küçədən bir az aşağıda kiçik, amma gözəlliyi, quruluşu ilə gözoxşayan parkdır. Parkın yanında restoran, market şəbəkələri tikilib. Bura keçmişlə bu günün vəhdətini xatırladır. Daha sonra İcra Hakimiyyətinin binasına doğru hərəkət edirik. Bu kiçik şəhərin cəmi 12 məhəlləsi var, yeni istinilən yerə çox tez bir zamanda çata bilirsən. İcra Hakimiyyətinin binası önündəyik. Bura bir zamanlar televiziyadan izlədiyimiz, hərbçilərimizin "Şuşa işğaldan azad edildi!" şüarını səsləndirdiyi məkandır. Binanın qarşısında Azərbaycanın görkəmli incəsənət xadimlərindən Üzeyir Hacıbəyov, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş heykəlləri qoyulub. Bu, Şuşanın tarixinin əbədiləşdirilməsi, erməni quldurlarının Azərbaycan xalqına, torpağına və mədəniyyətinə olan nifrətinin bariz sübutudur. Bu heykəllər sanki öz aralarında söhbətləşir, Şuşanın keçmişini və bu gününü müqayisə edirlər. Erməni işğalı dövründə buradakı fəlakətlərə şahid olan heykəllər indi dirçəlməkdə olan xoşbəxt Şuşanı qürurla izləyirlər.

İcra Hakimiyyəti binasının aşağısında, Çöl qala məhəlləsində Xan qızı Natəvanın sarayının yanında Xan qızı bulağı yerləşir. Buz kimi sərin suyu can dərmanı olan bu bulaq öz gözəlliyi ilə hər kəsi heyran edir. Bulağın aşağısında isə bütün əzəməti ilə Şuşa qalası bizi salamlayır. Qalanın üç qapısı – Gəncə, İrəvan və Ağoğlan qapıları öz möhtəşəmliyi ilə göz oxşayır. Qalanın divarlarına toxunduqca sanki Şuşanın ən gözəl illərini yaşayırsan. Burada şəkillər çəkdirdikdən və qalanın tarixi ilə tanış olduqdan sonra növbəti məntəqəyə doğru yola düşürük. Bu isə igidlər oylağı olan şəhərin ən böyük düzənliyi mahnılara, şeirlərə, igidlərin at yarışlarına ilham olan Cıdır düzüdür. Daşaltı




dərəsinin yuxarısında yerləşən Cıdır düzünə qalxan yolla irəliləyirik. Bu yol boyunca Seyidli məscidi, minadan təmizlənmiş ev və bağlar, Vaqifin məqbərəsi, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olanların dəfn edildiyi Şəhidlər xiyabanını yaxından görə bilirsən. Yol kənarındakı bağlardan meyvə dərərək Şuşanın hər qarışını gəzmək, bələd olmaq istəyirsən. Bu yolda isə bizi Vaqifin məqbərəsi qarşılayır. Səliqəli, hamar yol bir az aşağıda Vaqifin məqbərəsinə doğru uzanır. Məqbərənin kənarındakı gül bağçası buraya xüsusi gözəllik bəxş edir. Tikilinin kənarında məqbərənin tarixi, Ümummilli Liderin o zamanlar abidənin bərpası istiqamətində gördüyü işlərlə yanaşı, II Qarabağ müharibəsindən sonra da görülən işlər lövhədə əks olunub. Məqbərəyə girib, Vaqifin məzarını da ziyarət edib təlimçilərimizdən buranın tarixi haqqında məlumat alırıq.

Dik yolun sonuna – Cıdır düzünə gəlib çıxırıq. Cıdır düzünün girişi təhlükəsizlik məqsədilə hasarlanıb. Şuşanın bu məşhur ünvanı – Cıdır düzü ata-babalarımızın at çapdığı, uzaqlara açılan heyrətamiz mənzərəsi ilə bizi qarşılayır. Buradan baxarkən aşağıda Şuşa, uzaqda isə Xankəndi şəhəri görünür. Bu anda dillər əzbəri məşhur "Qarabağ" mahnısı yada düşür:

*Bu çəmənlərdə gəzib Vaqifin şux gözəli.*
*Ruhunu burdan alıb Natəvanın qəzəli.*

Bu çəmənlər yenidən Vaqif ruhlu şairlərin, Xan qızının təsvir etdiyi gözəllərin və sözsüz ki, qanı bahasına bu yurdu azad edən igid oğulların ana torpağıdır. Elə buradaca ağsaçlı bir qadın bizə yaxınlaşaraq öz doğmaları kimi bağrına basır, "xoş gəlmisiniz!" – deyir. Öyrənirik ki, Fəzilə adlı bu qadın Şuşanı ən son tərk edən və bu qədim yurd yerinə ilk qayıdan şuşalıdır. Onun Vətən, doğma yurd təəssübü sifətinin cizgilərində də özünü göstərir. Bir anlığa düşünürəm ki, 30 il düşmən tapdağında olan torpaqlarımızın azad edilməsində məhz belə anaların övladları şəhidlik zirvəsinə ucala, sağlamlığını itirərək qazi ola bilərdilər.

Gözlərim sonsuzluğa uzanan yaşıl meşələrə, sonu görünməyən Zəfər yoluna dikilib. Şuşa məhəbbəti hər bir azərbaycanlının qəlbində əvəzolunmaz yerə sahibdir, amma burada olanda bu sevgini daha dərindən hiss edirsən. Sanki Şuşanın daşı-torpağı dilə gəlib mahnı oxuyur, təbiət səni bağrına basır. Ötən əsrdə Azərbaycanın bağrından qoparılan bu el, buradakı hər bina, abidə səni gülərək salamlayır.

*Axşam saatlarıdır. Artıq Şuşadan ayrılmaq vaxtı çatıb. Yenidən Zəfər yolu ilə geriyə dönərkən bir daha geriyə boylanıb Şuşaya baxıram. Mənə elə gəlir ki, sanki burada gecələr olmur, Günəş daim bu torpaqların üzərinə öz istisini, hərarətini yayır. Bizə bu səadəti, əminliyi verən, bu torpaqlarda heç nədən qorxmayaraq addımlamağımıza şərait yaradan, Vətəni öz canlarından artıq sevən igidlərin əziz ruhu qarşısında baş əyir, Azərbaycan gəncliyi olaraq söz veririk ki, biz bu torpaqların üzərində əbədiyyət atəşi ilə alovlanan Günəşin sönməyinə əsla yol verməyəcəyik!*

**Aysel YUSİFZADƏ**
*Naxçıvan-Bakı-Şuşa-Bakı-Naxçıvan*

## Əməkdaşlıq müqaviləsinin reallaşdırılmasına tələbə mübadiləsi ilə başlanıldı



ADA Universiteti ilə "Naxçıvan" Universiteti arasında əməkdaşlıq haqqında müqaviləyə uyğun olaraq tələbə mübadiləsinə başlanılıb. Əldə olunmuş razılaşma çərçivəsində mübadilə proqramında iştirak edəcək Kompüter mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsi Oğuz Məmmədovla universitetin Elmi Şurasında görüş keçirilib.

Rektor, dosent Anar Kazımov tələbəni təbrik edib, cari ilin sentyabr ayında imzalanan müqavilədən söz açaraq çox az vaxt keçməsinə baxmayaraq, universitetdə seçim prosesinin təşkil olunmasından bəhs edib. ADA Universiteti ilə ölkənin ali təhsil müəssisələri arasında ilk mübadilə olmasını vurğulayan rektor Oğuz Məmmədova təhsil həyatında uğurlar arzulayıb. Mübadilə proqramında ilk dəfə iştirak edən Kompüter mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsi Oğuz Məmmədov tələbələr üçün yaradılan bütün imkanlara görə təşəkkürünü bildirib.

Sonda rektor Anar Kazımov yaxın günlərdə analoji mübadilə proqramının Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə də reallaşdırılacağını qeyd edib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 9 oktyabr 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 1. | NAZ LİFAN LF 7162 C-620 | 2010 | 1 | 3500.0 | 350.0 |
| 2. | OPEL ASTRA | 2007 | 1 | 4000.0 | 400.0 |
| 3. | OPEL CORSA | 2008 | 1 | 4000.0 | 400.0 |
| 4. | KİNG LONG 6116 G | 2009 | 1 | 12000.0 | 1200.0 |
| 5. | KİNG LONG 6116 G | 2008 | 1 | 11000.0 | 1100.0 |
| 6. | KİNG LONG 6116 G | 2007 | 1 | 10000.0 | 1000.0 |
| 7. | HYUNDAİ H1 | 2008 | 1 | 4000.0 | 400.0 |
| 8. | OPEL ASTRA | 2007 | 1 | 4000.0 | 400.0 |
| 9. | NAZ LİFAN LF 7132\2-320 | 2013 | 1 | 3000.0 | 300.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzin xəzinə hesabına 6 oktyabr 2023-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə Mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- müvafiq formada sifariş;*
*- ödəniləcək behin qəbzi;*
*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 9 oktyabr 2023-cü il tarixdə saat $11^{00}$-da Mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

**Əlaqə telefonu: 545-01-38**

### İtmişdir

Şərur rayonunun Vayxır kənd sakini Əhmədov Sadət Məmməd oğlunun adına olan JN-91 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Saltaq kəndində yaşamış Gəncəliyeva Tükəzban Yusif qızının adına olan JN-248$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şükürov Elməddin Fəxrəddin oğlunun adına olan avtomobilin 73BC539 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Bülbül Quliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 536